

## MÜTƏLLİM HƏSƏNOV

### *QIZIM*

Yollarına qar yağıb,
Bəxtin ağ olsun, Aysu.
Atan, anan sağ olsun,
Kefin çağ olsun, Aysu.

Ömrün görməsin kədər,
Günün keçməsin hədər.
Görmə qəzavü-qədər,
Canın sağ olsun, Aysu.

Xoşbəxt böyü, xoşbəxt ol,
Xoş sevinc ol, xoş bəxt ol.
El içində hər zaman,
Üzün ağ olsun, Aysu.

### *AYSUNUN SEVİNCİ*

Aysunun təzə
paltarı çoxdur.
Amma qoymağa
papağı yoxdur.

Lakin qarşıdan
gəlir qarlı qış.
Aysu onunçün
Xəyala dalmış.

Nənəsi onun
fikrin oxudu.
Gözəl, rəngbərəng
Papaq toxudu.

Papaq Aysunun
Gəldi xoşuna.
Onu sevinclə
Qoydu başına.

### *AYSU*

Baxışından nur yağır,
Nur parçasıdır Aysu.
Vüsalın, Aynurənin
Gül balasıdır Aysu.

Mütəllimin, Fərmanın
Şipşirin nəvəsidir,
Kamilənin, Rahilənin
Sədasıdır, səsidir.

Bibisi Yeganəyə
O, indidən naz satır.
Xalası Elnarəyə
Dili durmur söz atır.

Dayısı Cəmil ilə
Təzəcə dost olubdur.
Səmaya mehr salıb,
Dilinə bənd olubdur.

Səma onu çox sevir,
Söyləyir nə gözəldir.
Onu heç kimə vermir,
Mənim bacımdır,- deyir.





### *SƏMANIN TƏBRİKİ*

Aysunun ad gününü
Təbrik elədi Səma.
Bir dəstə qızılgülü
Dərərək verdi ona.

Dedi:-Gün o gün olsun
Yüz yaşını qeyd edək.
İndisə bir yaşın var
Bu ad günün mübarək.

### *BALACA HƏKİM*

Öz xəstə nənəsinə,
Qulluq eləyir Aysu.
Gah dərman verir ona,
Gah da ki, gətirir su.

Deyir:- Dərmanları at,
Nənə, bir az tez sağal.
Qayğına qalıram ha...
Mənə söylə "Çox sağ ol."

### *SEVİMLİ BALA*

Xalasını çox sevir,
Dayısına deyir can.
Bibisiylə oynayır,
Bu qız ta axşamacan.

Anasına naz satıb,
Valeh edir hər kəsi.
"Yaman dəcəldir",-deyir,
Ona Rəhilə nənəsi.

Fərman babasın görcək,
Deyir:-Gəl gedək bağa."
Bağda isə meylini
O salır oynamağa.

Dədəsi nağıl desə,
Sevinci aşıb-daşar.
Kamilə nənəsiylə
Parkda gəzib-dolaşar.

Dəniz tək təlatümlü,
Səma kimi təmizdir.
Çox sevimli baladır,
Hər bir kəsə əzizdir.

### *MƏNİM DİLİM BAL DADIR*

Aysunu çox sevirlər,
Səma, Lalə, Yasəmən.
Əsma isə onunla,
Deyir, rəfiqəyəm mən.

Dedim:-Bu qəşəng qızı,
Nədən sevir uşaqlar?
Cavab verdilər: Onun
Şirin, şəkər dili var.

Sordum:-Ay gözəl bala,
Səndə bu dil hardandır?
Dedi:-Bal yediyimdən
Mənim dilim bal dadır.

### *SƏN DƏ BAX*

Aysunun vardır,
Çoxlu kuklası.
Qorxaq dovşanı,
Vəhşi ayısı.

Xal-xal pələngi,
Fil tək nəhəngi.
Kəpənəyi var,
Üstə min rəngi.

Bilməyir nədir,
Zürafə, bəbir.
Aysu onlara
Hey qulluq edir.

Durub yanaşı
Bülbüllə, sərçə.
Çil toyuq, xoruz,
Qızıl qaz, beçə.

Deyir açmışam
Evdə zoopark.
Baba bilet al,
Gəlib sən də bax.-

### *BALACA AŞBAZ*

Aşbazlıq həvəsinə,
Düşüb balaca Aysu.
Qazana gah yağ tökür,
Gah düyü, gah da ki su.

Gahdan soğan doğrayır,
Gah kələmə atır əl.
Çuğundur ilə əti
Tökür suya əlbəəl.

Bu işindən xoşlanıb,
Qalır özündən razı.
Nənəsinin ərköyün,
Sevimli aşbaz qızı.

Söyləyir aşbazlıqda,
Olacağam bir ulduz.
Yemək hazır olanda,
Baxır ki, atmayıb duz.

### *DƏRİN MƏNA VAR*

Gah aya baxır,
Gah da ki, suya.
Adı xoş gəlir,
Nəvəm Aysuya.

Deyir bu adda
Dərin məna var.
Ayda od, ataş,
Suda həyat var.

Su həyat eşqi,
Aysa işıqdır.
Onlar adıma,
Bir yaraşıqdır.

Bu adı mənə
Veribdir atam.
Mənasın isə
Söyləyib anam.

Allah bəndəsi,
Yer övladıyam.
Su tək faydalı,
Ay tək odluyam.